Oxfam Briefing Note

Oxfam International

**Uğurlu gələcək naminə: Cənubi Qafqaz yol ayrıcında**

6 dekabr, 2004-cü il

## Qətiyyətli addımlar dövrü

Cənubi Qafqaz yol ayrıcına yaxınlaşır. Müstəqillik qazanandan 13 il keçməsinə baxmayaraq Qafqaz xalqları hələ də yoxsulluğun iztirablarindan yaxa qurtara bilməmişdirlər (Dünya Bankı, 2003[1]). Şimali Qafqazdakı qeyri-sabitlik isə dövlətlərin və beynəlxalq donor təşkilatların diqqətini Cənubi Qafqazdan yayındırmışdır.

Dondurulmuş və çözülməmiş münaqişələr regionun iqtisadi potensialını boğaraq minlərlə insanı qeyri-müəyyənliyə düçar edir, hökümətlərin və donor təşkilatların yoxsulluğun azaldılması istiqamətindəki səylərini bir çox hallarda səmərəsiz edir. Artıq beynəlxalq ictimaiyyətin diqqətini Cənubi Qafqaza yönəltmək vaxtıdır. Hökümətlər, donorlar, vətəndaş cəmiyyəti təşkilatları mövcud olan çətinliklərə son qoymaq üçün qətiyyətli addımlar atmalıdırlar. Regionun təbii sərvətlərlə və insan potensialı ilə zəngin olmasını nəzərə alsaq ölkələrin çiçəklənməsi üçün potensial imkanların mövcud olması barədə fikir heç kimdə şübhə doğurmamalıdır.

Artıq 10 ildir ki, Oksfam Cənubi Qafqazda humanitar və inkişaf yönümlü proqramlar həyata keçirir. Biz inanırıq ki, hər üç ölkənin Minilliyin İnkişaf Məqsədləri[2] (MİM) ilə bağlı üzərinə götürdükləri öhdəliklər insanların həyatında müsbət dəyişikliklər etmək üçün əlverişli imkanlar yaradır. Artıq razılaşdırılmış hədəflərə çatmaq üçün qoyulmuş vaxta – 2015-ci ilə 10 il qalır. Oksfam bu məqsədləri reallığa çevirmək üçün hökümətləri və beynəlxalq təşkilatları daha səmərəli və hərtərəfli proqramlar hazırlamağa çağırır. Bizim məqsədimiz hökümətləri yoxsulluğun azaldılması istiqamətində ciddi nəticələr əldə etməsində və insanların ən vacib sosial xidmətlərə müqəssərliyinin təmin olunmasında yardımçı olmaqdır.

---

[1] Ölkə üzrə yoxsulluq səviyyəsindən aşağı səviyyəfə yaşayan əhalinin faizi: Azərbaycan – 50%; Gürcüstan – 55%; Ermənistan – 43%

[2] Yoxsulluğun azaldılması üçün beynəlxalq səviyyədə qəbul olunmuş hədəflər: əlavəyə bax

Dağlıq Qarabağ, Abxaziya və Cənubi Osetiya kimi tərəqqinin qarşısını alan münaqişələrin həlli yollarını tapmaq üçün hökümətlərin donor təşkilatlar və vətəndaş cəmiyyəti ilə birgə əməkdaşlıq etmələri məqsədəuyğun və vacibdir.

## Biz nə edə bilərik?

Oksfamın Cənubi Qafqazda fəaliyyətinə 1993-cü ildə Dağlıq Qarabağ, Abxaziya və Cənubi Osetiyada hərbi qarşıdurmaların tüğyan etdiyi bir vaxt başlamışdır. Humanitar faciə xarakteri daşıyan həmin dövrdə minlərlə qaçqın və məcburi köçkün doğma evlərindən qovulmuş, zorakılığa, çətinlik və məhrumiyyətlərə məruz qalmışdılar. Oksfam həyat üçün ən vacib olan içməli su, sığınacaq və ilkin səhiyyə xidmətlərini təmin etməklə çətinliyə məruz qalmış adamlara yardım göstərmişdir. Təşkilat yoxsul əhaliyə qazanc imkanları yaratmaqla istehsal etdikləri məhsul və xidmətlərin bazara çıxışı üçün kömək etmişdir. Bundan başqa Oksfam və tərəfdaş təşkilatlar yoxsul insanların həyatına təsir edəcək qərarların qəbulunda eşidilmək hüququnu təmin etmişdir. Bu proseslərdən biri də, hər üç ölkədə Yoxsulluğun Azaldılması üzrə Strateji Sənədin hazırlanması və həyata keçirilməsi olmuşdur.

Regiondakı fəaliyyət dövrü ərzində Oksfam və onun tərəfdaş təşkilatları minlərlə adamın kasıblıq və iztirab içərisində yaşamasının şahidi olmuşlar. Bu cür ağır vəziyyət təkcə maddi çətinliklər və işsizliklə əlaqədar deyil, həm də ilkin sosial xidmətlərə müyəssərliyin olmaması və ən başlıcası siyasi münaqişələrin həll olunmamasıdır.

Biz Oksfam olaraq, fəaliyyət dövründə yoxsul adamların kasıbçılıq girdabından yaxa qurtarmaq üçün nümayiş etdirdikləri qabiliyyətin də şahidi olmuşuq. Buna misal Oksfamın səhiyyə proqramlarıdır. Hal-hazırda İcma Əsaslı İlkin Səhiyyə Xidməti Modeli regionun ucqar və rayon mərkəzlərindən uzaqda yerləşən kəndlərində uğurla həyata keçirilir. Bu cür layihələrin işlək və lazımlı olması zaman vasitəsilə sübuta yetirilmişdir. Lakin bu cür layihələrin daha çox coğrafi ərazini əhatə etməsi və daha çox insana xidmət etməsi üçün dövlət tərəfindən dəstəklənməsinə ciddi ehtiyac duyulur.

## Cənubi Qafqazda yoxsulluq

Hər üç ölkədə hazırda nisbətən sabit iqtisadi inkişafın olmasına baxmayaraq, bir çox hallarda insanlar yenə də yoxsulluq səviyyəsində yaşayırlar. Sovet İttifaqının süquta uğraması milyonlarla adamı yoxsulluğa sürüyən kütləvi işsizliyə və əvvəllər pulsuz olan soisal xidmətlərin itrilməsinə gətirib çıxardı. Bundan başqa, hərbi münaqişələr, sıravi vətəndaşlara əlavə bir dərd olaraq, geniş miqyaslı yoxsulluğa daha da rəvac verdi.

İqtisadiyyatın bəzi sahələrinə əhəmiyyətli miqdarda sərmayələrin qoyulmasına və donorlar tərəfindən dəstəklənən sosial-iqtisadi islahatların mövcudluğuna baxmayaraq regionda yaşayan əhalinin yarısı həmin ölkələrdə müəyyən olunmuş yoxsulluq həddindən aşağı səviyyədə yaşamaqda davam edir (Dünya Bankı, 2003). Bununla belə, Cənubi Qafqazda 1.1 milyondan artıq qaçqın və məcburi köçkün yaşayır (BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı, 2002). Dondurulmuş Dağlıq Qarabağ, Abxaziya və Cənubi Osetiya kimi münaqişələr isə siyasi pat vəziyyətində qaldıqca, qaçqın və məcburi köçkünlər sonu görünməyən qeyri-müəyyənlikdə yaşamaqda davam edirlər.

Bazar iqtisadiyyatına keçid və regionda son illər nəzərə çarpan iqtisadi inkişafa baxmayaraq, social və iqtisadi sahələrdə hələ də boşluqların olması fakt olaraq qalmaqdadır. Maddi yoxsulluğun yüksək olması ilə yanaşı hər üç dövlət hələ də Sovet səhiyyə və sosial müdafiə sistemini əvəz etmək üçün səmərəli yol axtarışındadırlar. Qeyd etmək lazımdır ki, əvvəllər, səhiyyə və sosial müdafiə xidmətləri pulsuz idi. Bu günkü realllıqda minlərlə insanın yoxsulluq səviyyəsində yaşamasını nəzərə alsaq, çoxlarının səhiyə və sosial xidmətlərə müəssərliyinin olmamasını müşahidə edə bilərik.

Sosial-iqtisadi dəyişikliklər və münaqişələr kişi və qadınlara müxtəlif formalarda təsir etmişdir. Sosial-iqtisadi çətinliklərin fonunda qadınlar daha çevik olmuş, xırda alver və kiçik istehsal vasitəsilə evdə çörək qazanmaq rolunu kişilərlə bölüşdürməyə başladılar (Regionda bu rol əsasən kişilərə aid olunur). Kişilərin qazanc imkanlarının əhəmiyyətli dərəcədə itirməsi isə ailələrdə psixoloji gərginlik, münaqişələr və məişət zorakılığı hallarının tez-tez baş verməsinə gətirib çıxardı. Ailə daxilində baş verən bu problemlər ailələrin dağılması, qadınların tənha analara çevrilməsi və bir çox hallarda uşaqların internatlara atılması ilə nəticələndi (Uşaqların internatlara atılmasının əsas səbəbləri hesabatı, UAFA 2002).

**21-ci əsrin imkanları və inkişaf çağırışları**

Cənubi Qafqaz xalqlarının üzləşdiyi çoxlu sayda çətinliyin olmasına baxmayaraq Oksfam regionun potensial imkanlarının mövcudluğuna inanır. Bu potensiallara Azərbaycanda Neft Sektorunun inkişafı, Bakı-Tbilisi-Ceyhan layihəsini, Gürcüstanda son illər baş verən siyasi dəyişiklikləri misal göstərmək olar.

Biz sıravi vətəndaşların həyatlarında müsbət dəyişikliklər olunmasına və inkişafı ləngidən maneələrin aradan qaldırılmasına kömək etmək istəyirik.

Artıq yoxsulluğa qarşı daha qətiyyətli addımlar atılmasının vaxtı yetişib.

Oksfam hökümətləri və donor təşkilatları:

- yoxsul insanlar üçün iqtisadi imkanları təmin etməyə;
- ən vacib sosial xidmətlərin, əsasən də tibbi xidmətləri təşkil etməyə;
- vətəndaş cəmiyyətinin gücləndirilməyə, şəffaflığın və hesabatlılığın təmin olunmasına

çağırır.

# Minilliyin İnkişaf Məqsədləri

2000-ci ilin sentyabrında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev daxil olmaqla, 147 dövlət və hökümət başçısı dünyada yoxsulluğun azaldılmasına nail olmaq məqsədi ilə Minilliyin İnkişaf Məqsədləri (MİM) ilə bağlı öhdəliyə imza atmışlar.

MIM BMT-nin Baş Asambleyası tərəfindən qəbul edilmiş Minilliyin Bəyannaməsində müəyyən edilmişdir.

MIM dünya ictimaiyyətinin səylərini 2015-ci elədək insanların həyat şəraitinin nəzərəçarpacaq dərəcədə yaxşılaşdırılmasına yönəldilən məqsədlərin toplusunu müəyyən edir.

MİM 8 məqsəd, 18 hədəf və 48 göstəricidən ibarətdir. Bu məqsədlər 1990-cı ildən 2015-ci ilə qədər həyata keçirilməlidir.

Minilliyin İnkişaf Məqsədləri:

- **Ифрат йохсуллуьу вя ажлыьы арадан галдырмаг**
- **Цмуми ибтидаи тящсиля наил олмаг**: бцтцн оьлан вя гызларын там ибтидаи тящсил алмасыны тямин етмяк
- **Эендер бярабярлийини тямин етмяк вя гадынлара сялащиййят вермяк**
- **Ушаг юлцмц щалларыны азалтмаг**: беш йашынадяк ушаглар арасында юлцм щалларыны цчдя ики дяфя азалтмаг
- **Ана саьламлыьыны йахшылашдырмаг: ана юлцмцнц дюрддя цч дяфя азалтмаг**
- **ГИЧС, малйарийа вя вярям хястяликляринин йайылмасынын гаршысыны алмаq**
- Еколоъи таразлыьы тямин етмяк: **ятраф мцщитин давамлылыьыны тямин етмяк**
- Боржларын йцнэцлляшдирилмяси, цнванлы йардым вя тижарят əsas олмагла **инкишаф цчцн глобал ямякдашлыьы инкишаф етдирмяк**

МИМ щаггында ялавя мялумат алмаг цчцн ашаьыдакы Интернет сайтларына бах:

http://www.Oksfam.org.uk/what_you_can_do/campaign/mdg/index.htm

http://www.developmentgoals.org/

http://www.un.org/millenniumgoals/

http://www.meetingthemdgs.org/

http://www.mdgender.net/

http://www.makepovertyhistory.org/home.html

Ятрафлы мялумат цчцн бах:

«Гачгынлар цзря БМТ Али Комиссарлыьы Иллик Статстика Китабы» (2002), 7 октйабр 2004-жц илдя истифадя олунмушдур

http://www.unhcr.ch/cgi-bin/texis/vtx/statistics/opendoc.pdf

Дцнйа Банкы «Юлкя Бир Бахышда жядвялляри»

http://www.worldbank.org/data/countrydata/countrydata.html

Published by Oxfam International December 2004
Published by Oxfam GB for Oxfam International under ISBN 978-1-84814-636-5